Milli Büdcə Qrupu

# AYLIQ BÜLLETEN №5(5)

İyul 2007

# Mündəricat


1. **Büdcə prosesi və büdcə gəlirləri**

- *Dövlət büdcəsinin icrası (yanvar-may 2007-ci il)*
- *Neft sektoru ilin birinci yarısında Azərbaycanın vergi daxilolmalarının 61.8%-ni təmin edib*
- *Dövlət Əmlakının İdarə Edilməsi üzrə Komitə dövlət büdcəsinə 1,5 mln. manat köçürüb*
- *Gömrükçülər yeddi aylıq proqnoza 100,98 faiz əməl etmişlər*
- *Azərbaycanın dövlət büdcəsinə vergi köçürmələri təqribən 2 mlrd. manat təşkil edib*
- *Dövlət büdcəsinə 2007-ci ilin iyun ayında vergi və digər ödəmələrin daxil olması haqqında məlumat*
- *Azərbaycanın Rabitə Nazirliyi büdcə köçürmələrini açıqlayıb*
- *Dövlət Neft Fondunun ilin birinci yarısına maliyyə göstəriciləri*

2. **Vergilər**

- *Azərbaycan Vergilər Nazirliyi ilin birinci yarısının yekunlarını açıqlayıb*
- *2007-ci iln 1 iyuluna görə iqtisadiyyatın vergi yükü 18.3%-ə bərabər olmuşdur*
- *Nazir: Azərbaycanda qüvvədə olan Vergi Məcəlləsi liberaldır*
- *Vergilər naziri Fazil Məmmədov sahibkarlara müraciət edib*
- *Azərbaycanın Vergilər Nazirliyi aksiz markaları ilə bağlı yoxlamalarda 700-dən çox pozuntu aşkar edib*
- *Azərbaycanda vahid gəlir vergisi dərəcəsinin tətbiqinin texniki hissəsi üzərində iş başa çatdırılıb*
- *Hər il 350 milyon dollar vergidən yayındırılır*

3. **Maliyyə Nazirliyi**

- *Azərbaycanın Əyar Palatası avadanlığın alışı üzrə tender elan edib*
- *Azərbaycanın Maliyyə Nazirliyi dövlət istiqrazlarının xarici valyutada buraxılması ilə bağlı hüquqi məsləhətçini müəyyən edib*

4. **Vətəndaş cəmiyyəti**

- *Azərbaycan prezidenti QHT-lərə dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında sərəncam verib*

6. **Digər yeniliklər**

- *Azərbaycanda elektron dövlət satınalmaları işlənib hazırlanmışdır*
- *Özəlləşdirmənin gedişi haqqında*

# Büdcə prosesi və büdcə gəlirləri

***Dövlət büdcəsinin icrası (yanvar-iyun 2007-ci il)***

2007-ci ilin I yarısında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 67.6 faiz artaraq 2582.3 milyon manata, xərcləri isə 58.0 faiz artaraq 2284.8 milyon manata çatmış, büdcənin icrasında yaranmış 297.5 milyon manatlıq profisit ümumi daxili məhsulun 2.8 faizini təşkil etmişdir. Gəlirlərin 75.6 faizi (1951.9 milyon manatı) Vergilər Nazirliyi, 14.2 faizi (366.6 milyon manatı) Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilmiş, büdcə proqnozu isə bu təşkilatlar tərəfindən müvafiq olaraq 101.3 faiz və 101.1 faiz səviyyəsində yerinə yetirilmişdir. Gəlirlərin 536.6 milyon manatı və ya 20.8 faizi əlavə dəyər vergisindən, 1038.7 milyon manatı (40.2 faizi) hüquqi şəxslərin mənfəət (gəlir) vergisindən, 258.7 milyon manatı (10.0 faizi) fiziki şəxslərın gəlir vergisindən, 126.4 milyon manatı (4.9 faizi) aksiz vergisindən, 179.0 milyon manatı (6.9 faizi) isə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxil olmuşdur.

**2007-ci ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| ***Gəlirlər – cəmi*** | **2582,3** | **100,0** | **24,2** | **167,6** |
| *o cümlədən:* | | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 258,7 | 10,0 | 2,4 | 183,9 |
| Hüquqi şəxslərin mənfəət(gəlir) vergisi | 1038,7 | 40,2 | 9,7 | 5,4d |
| Torpaq vergisi | 13,2 | 0,5 | 0,1 | 161,0 |
| Əmlak vergisi | 34,6 | 1,3 | 0,3 | 139,5 |
| Əlavə dəyər vergisi | 536,6 | 20,8 | 5,0 | 155,0 |
| Aksiz | 126,4 | 4,9 | 1,2 | 184,5 |
| Mədən vergisi | 55,0 | 2,1 | 0,5 | 127,3 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 179,0 | 6,9 | 1,7 | 132,3 |
| ondan idxal rüsumu | 71,9 | 2,8 | 0,7 | 110,8 |
| Sair vergilər | 28,1 | 1,2 | 0,4 | - |
| Digər gəlirlər | 312,0 | 12,1 | 2,9 | 107,4 |

Büdcə xərclərinin 756.7 milyon manatı (33.1 faizi) iqtisadiyyata investisiya qoyuluşuna, 325.9 milyon manatı (14.3 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 300.1 milyon manatı (13.1 faizi) isə təhsilin maliyyələşdirilməsinə sərf edilmişdir. Xərclərin 33.5 faizini (765.8 milyon manatını) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

**2007-ci ilin yanvar-iyun aylarında dövlət büdcəsinin xərcləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| **Xərclər – cəmi** | **2284,8** | **100,0** | **21,4** | **158,0** |
| *o cümlədən:* | | | | |
| Ümumi Dövlət Xidmətləri | 200,0 | 8,8 | 1,9 | 119,0 |
| *ondan:* | | | | |
| beynəlxalq təşkilatlara üzvlük haqqı | 2,2 | 0,1 | 0,02 | 61,1 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq orqanları | 150,1 | 6,6 | 1,4 | 147,7 |
| Təhsil | 300,1 | 13,1 | 2,8 | 141,1 |
| Səhiyyə | 92,4 | 4,0 | 0,9 | 151,7 |
| Sosial müdafiə və sosial təminat | 325,9 | 14,3 | 3,1 | 2,2d |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 37,0 | 1,6 | 0,3 | 143,4 |
| İqtisadiyyata | 756,7 | 33,1 | 7,1 | 171,4 |
| *ondan:* - mənzil və kommunal təsərrüfatı | 28,8 | 1,3 | 0,3 | 126,3 |
| - kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq,ovçuluq və ətraf mühitin mühafizəsi | 63,6 | 2,8 | 0,6 | 98,6 |
| - sənaye, tikinti və faydalı qazıntılar | 636,2 | 27,8 | 6,0 | 2,3d |
| - nəqliyyat və rabitə | 18,1 | 0,8 | 0,2 | 52,7 |
| Sair xərclər | 422,6 | 18,5 | 3,9 | 147,9 |
| *Profisit* | **297,5** | - | **2,8** | - |

**Neft sektoru ilin birinci yarısında Azərbaycanın vergi daxilolmalarının 61.8%-ni təmin edib.** Vergilər Nazirliyi 2007-ci ilin birinci yarısında dövlət büdcəsinə vergi daxilolmalarında neft sektorunun payının 61.8%-ə çatdığını elan edib. Nazirliyin kollegiya iclasında vergilər naziri Fazil Məmmədov bildirib ki, neft sektorundan hesabat dövründə daxilolmalar proqnozu 1206.8 mln.manat məbləğində tam yerinə yetirilib. Ümumi vergi daxilolmaları isə 1951.9 milyon manat olmaqla proqnozlardan 1.3% çox icra edilib. “Azəri-Çıraq-Günəşli neft yataqları blokunun işlənməsi üzrə Konsorsiumun vergi ödənişləri 751.3 mln.manat olmaqla, 2006-cı ilin birinci yarısına (538.3 milyon

manat) nisbətən 2.5 dəfə çoxdur"- deyə nazir bildirib. AMOK-un büdcənin vergi daxilolmalarındakı payı 38.5% təşkil edib və bu ilk dəfə olaraq Dövlət Neft Şirkətinin müvafiq payından çoxdur. 2007-ci ilin birinci yarısında ARDNŞ büdcəyə 449.6 milyon manat vergi ödəyib ki, bu da 2006-cı ilin müvafiq dövrünə nisbətən 3.4% (29.9 milyon manat) çoxdur. ARDNŞ-in büdcının vergi daxilolmalarındakı payı ənənvi 30-35%-dən 23%-ə qədər azalıb.

**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Komitə dövlət büdcəsinə 1,5 mln. manat köçürüb.** Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi ilin birinci yarısı üzrə fəaliyyətinin yekunlarını açıqlayıb. Komitənin yaydığı məlumatda bildirilir ki, keçirilən hərraclar nəticəsində 1100 kiçik dövlət obyekti özəlləşdirilib. Hesabat dövründə əmlakın icarəsi üçün 800 müqavilə verilib. Komitə tərəfindən dövlət büdcəsinə 1,5 mln. manat köçürülüb.

**Gömrükçülər yeddi aylıq proqnoza 100,98 faiz əməl etmişlər.** Dövlət Gömrük Komitəsi, onun yerli strukturları 2007-ci ilin yeddi ayı üzrə proqnoz tapşırığa layiqincə əməl etmişlər. İlkin məlumata görə, yanvar-iyul ayları ərzində gömrük orqanları tərəfindən nəzərdə tutulmuş 430,50 milyon manat əvəzinə 434,73 milyon manat gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülmüş, proqnoz 100,98 faiz yerinə yetirilmişdir. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 142,89 milyon manat və ya 48,96 faiz çoxdur.

**Azərbaycanın dövlət büdcəsinə vergi köçürmələri təqribən 2 mlrd. manat təşkil edib.** Birinci yarımildə vergi ödəmələrindən Azərbaycanın dövlət büdcəsinə daxil olmalar 1 926 698,1 min manat proqnoza qarşı 1 951 931,6 min manat təşkil edib. Bu barədə Vergilər Nazirliyinin rəsmi qəzetində məlumat verilib. ƏDV-dən daxil olmalar 269 080,1 min manat proqnoza qarşı 286 913,5 min manat (106,6 faiz), aksiz vergiləri 91 516,6 min manat proqnoza qarşı 92 615,5 min manat (101,2 faiz), mənfəət vergisi 1 030 305,4 min manat proqnoza qarşı 1 039 117,6 min manat (100,9 faiz), hasilat sənayesindən vergi 54 732,2 min manat proqnoza qarşı 55 036 min manat (100,6 faiz), torpaq vergisi 12 780,8 min manat proqnoza qarşı 13 383 min manat (104,4 faiz), əmlak vergisi 33 570 min manat proqnoza qarşı 34 864,2 min manat (103,9 faiz), fiziki şəxslərdən gəlir vergisi 251 887,7 min manat proqnoza qarşı 262 548,9 min manat (104,2 faiz), dövlət rüsumu 22 002,7 min manat proqnoza qarşı 23 159,7 min manat (105,3 faiz), yol vergisi 7 707,5 min manat proqnoza qarşı 7 889,3 min manat (102,4 faiz), sadələşdirilmiş vergi 20 737,6 min manat proqnoza qarşı 18 704,3 min manat (90,2 faiz) təşkil edib.

**Dövlət büdcəsinə 2007-ci ilin iyun ayında vergi və digər ödəmələrin daxil olması haqqında məlumat**

**İyun, 2007** (min AZN). *Naxçıvan MR ilə*

| **Vergi və tədiyyələrin növləri** | **2007, iyun** | | | |
|---|---|---|---|---|
| | **Proqnoz** | **Daxilolma** | **Faiz** | **Fərq** |
| Əlavə dəyər vergisi | 50 667,6 | 55 586,6 | 109,7 | 4 919,0 |
| Aksiz | 16 974,0 | 18 006,5 | 106,1 | 1 032,5 |
| Mənfəət vergisi | 162 666,5 | 59 338,8 | 36,5 | -103 327,7 |
| Mədən vergisi | 10 143,4 | 13 324,2 | 131,4 | 3 180,8 |
| Torpaq vergisi | 2 397,9 | 2 886,3 | 120,4 | 488,4 |
| Əmlak vergisi | 6 312,4 | 7 350,7 | 116,4 | 1 038,3 |
| Fiziki şəxslərin gəlir vergisi | 47 498,5 | 53 322,8 | 112,3 | 5 824,3 |
| Dövlət rüsumu | 4 154,2 | 4 356,3 | 104,9 | 202,1 |
| Yol vergisi | 1 455,0 | 1 035,1 | 71,1 | -419,9 |
| Sadələşdirilmiş vergi | 3 915,3 | 2 507,6 | 64,0 | -1 407,7 |
| Sair daxilolmalar | 24 482,2 | 69 763,5 | 285,0 | 45 281,3 |
| **C Ə M İ** | **330 667,0** | **287 478,4** | **86,9** | **-43 188,6** |

**Azərbaycanın Rabitə Nazirliyi büdcə köçürmələrini açıqlayıb.** Birinci yarımildə Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi dövlət büdcəsinə 10,9 mln. manat köçürüb. Bu barədə Nazirlikdən məlumat verilib. Əhalinin Sosial Müdafiəsi Dövlət Fonduna 4,6 mln. manat köçürülüb. Nazirliyin müəssisələri üzrə gəlirləri 74,5 mln. manat proqnoza qarşı 87,9 mln. manat təşkil edib. Əhalidən göstərilmiş xidmətlərə görə əldə olunan gəlirlər 2006-cı ilin eyni dövrü ilə müqayisədə 13,5 faiz artımla 32,1 mln. manata çatıb. Bu dövr ərzində Nazirlik ölkədə İT sahəsinin inkişafına 2006-cı ilin müvafiq dövrü ilə müqayisədə 6 faiz çox olmaqla 14 mln. manat sərf edib. Azərbaycanın rabitə sahəsinə yönəldilmiş investisyaların ümumi həcmi 56,9 mln. manat təşkil edib. Nazirlik üzrə orta aylıq əmək haqqı 214 manat təşkil edib. Bu dövr ərzində Nazirlik tərəfindən 238 yeni iş yeri açılıb. Rabitə sahəsinin Azərbaycanın ÜDM-ində payı 1,6 faiz təşkil edib.

**Dövlət Neft Fondunun ilin birinci yarısına maliyyə göstəriciləri.** Bu ilin birinci yarısında Neft Fondu 16,4 milyon dollar əlavə gəlir götürüb 2007-ci il büdcəsinə əsasən Fondun gəlirləri 1 milyard 556 milyon manat, xərclər isə 977 milyon manatdır. Bu ilin birinci yarısında dünya bazarında neftin bahalaşması ilə yaranan qiymət fərqindən Neft Fondu 16,4 milyon dollar əlavə gəlir götürüb. Neft Fondundan verilən məlumata görə, təkcə ötən ay qiymət fərqindən 2,1 milyon manat əlavə gəlir əldə edilib. Qeyd edək ki, 2007-ci ilin dövlət büdcəsində neftin bir barelinin qiyməti 50 dollardan götürülüb. Amma ilin birinci yarısında neftin qiyməti 60 dollardan aşağı düşməyib. İndi Azərbaycan nefti 77 dollardan baha satılır. Neft gəlirlərinin Neft Fonduna köçürülməsi xüsusi qayda ilə həyata keçirilir. Belə ki, 1 barel neftin qiymətinin 40 dollardan az olan hissəsinin 25 faizi Dövlət Neft Fonduna köçürülür. 40 dollardan 50 dollara qədər olan hissəsinin 50 faizi, 50 dollardan çox olan hissəsinin isə 75 faizi Neft Fonduna çatır. Xatırladaq ki, 2007-ci il büdcəsinə əsasən Fondun gəlirləri 1 milyard 556 milyon manat, xərclər isə 977 milyon manatdır. Ümumiyyətlə isə indi Fondda 1,8 milyard dollar vəsait toplanıb. İlin sonuna qədər bu rəqəmin 2 milyard dollara çatacağı gözlənilir.

# Vergilər

**Azərbaycan Vergilər Nazirliyi ilin birinci yarısının yekunlarını açıqlayıb.** Azərbaycan Vergilər Nazirliyinin rəsmi qəzetinin verdiyi məlumata görə, ilin birinci yarısında nazirlik proqnozları 101,3% olmaqla artıqlaması ilə yerinə yetirib. Hesabat dövrü ərzində vergi daxilolmaları 1,951 mlrd. manat təşkil edib və bu göstərici 2006-cı ilin anaoloji dövr göstəricisindən 924,9 mln. manat və ya 90% çoxdur. Yanvar-may ayları ərzində dövlət sektorundan daxilolmalar 182,9 mln. manat (45%), qeyri-dövlət sektorundan isə 741,9 mln. manat (119,6%) artıb. Neft sektorunda proqnoz 100% həyata keçirilib. İlin birinci yarısında qeyri-neft sektorunda 751 mln. manat məbləğində vergi qeydə alınıb.

**2007-ci iln 1 iyuluna görə iqtisadiyyatın vergi yükü 18.3%-ə bərabər olmuşdur.** Vergilər Nazirliyinin məlumatına görə 1 iyul 2007-ci il tarixinə iqtisadiyyatın vergi yükü (vergi ödənişlərinin ÜDM-ə nisbəti) 18.3%-ə qədər azalmışdır. İlin birinci yarısında vergi ödənişləri bir il öncəyə nisbətən 90% artaraq 924.8 milyon manatdan 1951.9 milyon manata çatmışdır. Dövlət sektorunun vergi ödənişləri 2007-ci ilin birinci yarısında 589.6 milyon manat təşkil edərək 2006-cı ilin müvafiq dövrünə nisbətən 45% və ya 182.9 milyon manat çox olmuşdur, qeyri-dövlət sektorunun payı isə 1362.3 milyon manat təşkil edərək 2006-cı ilin müvafiq dövrünə nisbətən 19.6% və ya 741.9 milyon manat çoxdur. Beləliklə, dövlət sektorunun büdcəyə vergi ödənişlərindəki payı 30.2%, qeyri-dövlət sektorunun payı isə 69.8%-dir. Yarım il üçün qeyri-neft sektorunun vergi ödənişləri 751 milyon manat təşkil edərək proqnozdan (719.9 milyon manat və ya 4.3%) və ötən ilki göstəricidən (283.2 milyon manat və ya 60.5%) çoxdur. Qeyri-neft sektorunun büdcənin vergi daxilolmalarındakı payı 38.5%-ə bərabərdir.

**Nazir: Azərbaycanda qüvvədə olan Vergi Məcəlləsi liberaldır.** Azərbaycanda qüvvədə olan Vergi Məcəlləsi liberaldır. O, Vergilər Nazirliyinə verginin ödənilməməsinə görə sərt tədbirlər görməyə imkan vermir. Xəzər İşgüzar İnteqrasiya Klubunda (CIBC) keçirilən görüşdə Azərbaycanın vergilər naziri Fazil Məmmədov bildirib ki, nazirlik hazırda vergidən yayınan şəxslərə qarşı görülən tədbirlərin sərtləşdirilməsinin vacib olduğunu hesab edir. Qüvvədə olan Vergilər Məcəlləsinə əsasən, borclu şəxsləri məsuliyyətə nazirlik yox, məhkəmə orqanları cəlb edir. Nazir həmçinin bu məsələnin parlamentin payız sessiyasında müzakirəsini də istisna etməyib. Bir çox Avropa ölkələrində borclulara münasibətdə həbslər həyata keçirilir, yaxud da borclu şəxsin yerinə pulu ödəmək hüququna malik olan üçüncü şəxslər mövcud olur. Azərbaycanda isə hələ bu cür təcrübə yoxdur.

**Vergilər naziri Fazil Məmmədov sahibkarlara müraciət edib.** Azərbaycanın vergilər naziri Fazil Məmmədov aksiz markaları ilə bağlı son zamanlar aparılan yoxlamaların müvəqqəti xarakter daşımadığı barədə sahibkarlara müraciət edib. Nazirlik bu istiqamətdə gücləndirilmiş yoxlamaları həmişə davam etdirmək niyyətindədir. Nazirin çərşənbə günü bildirdiyinə görə, aksiz markalarının yoxlanılması ilə yanaşı kassa aparatlarından istifadə də yoxlanılır. Məmmədov qeyd edib ki, aksiz markaları və kassa aparatlarından istifadə ilə bağlı yoxlamalar ölkədə altı aydır ki, davam edir.

**Azərbaycanın Vergilər Nazirliyi aksiz markaları ilə bağlı yoxlamalarda 700-dən çox pozuntu aşkar edib.** Azərbaycanın Vergilər Nazirliyi bu günə qədər satılan məhsulların üzərində aksiz markalarının mövcud olması ilə bağlı 15525 yoxlama keçirib. Vergilər Nazirliyinin yaydığı məlumatda 760 pozuntu halının aşkar edildiyi göstərilib. Yoxlamalar zamanı aksiz markası olmayan 158400 manat dəyərində 119601 məhsul aşkar olunub. Bunlardan 19303-ü tütün məmulatı, 100298-i

alkoqollu içkiləşr olub. Məlumatda göstərilib ki, iyun ayının 25-dən Vergilər Nazirliyi pozuntuların aşkar olunması üzrə operativ işlər aparır.

**Azərbaycanda vahid gəlir vergisi dərəcəsinin tətbiqinin texniki hissəsi üzərində iş başa çatdırılıb.** Azərbaycanda vahid gəlir vergisi dərəcəsinin tətbiqinin texniki tərəfi praktiki cəhətədən başa çatdırılıb. Bunu Azərbaycanın vergilər naziri Fazil Məmmədov bildirib. Gəlir vergisi üzrə vahid dərərcə dünyanın bir çox ölkələrində tətbiq olunur ki, bu da vergidən yayınmanın qarşısını alır. Məmmədovun sözlərinə görə, nazirlik sənədin hüquqi tərəfinin tənzimlənməsinə hazırlaşır. "Amma əvvəlcə Azərbaycanda vergi amnistiyası haqqında qanunun tətbiq olunması lazımdır", - deyə o söyləyib. Məmmədovun sözlərinə görə, 2008-ci ildə vahid dərəcənin qəbul olunacağını gözləməyə dəyməz. Hazırda Azərbaycanda gəlir vergisi üzrə iki dərəcə tətbiq olunur – 14 faiz və 35 faiz (min manatdan yuxarı). İcbari sosial sığorta üzrə faiz dərəcəsi ölkədə 25 faiz təşkil edir. Bu, işləyənlərə verilən məbləğin 3 faizi və işəgötürənlərin əmək haqqı fondunun 22 faizi hesabına təmin olunur.

**Hər il 350 milyon dollar vergidən yayındırılır.** Yayındırılan vəsaitlər qeyri-neft sektorunda büdcə daxilolmalarının 30-40 faizinə bərabərdir. Hər il iş adamları və dövlət təşkilatları tərəfindən 350 milyon dollara qədər vəsait vergidən yayındırılır. Bu barədə Türkiyəli iş adamları ilə keçirdiyi görüşdə vergilər naziri Fazil Məmmədov bəyan edib. Nazirin sözlərinə görə, aparılmış yoxlamalar nəticəsində əlavə olaraq büdcəyə 350 milyon manata qədər vəsaitin qaytarılması təmin edilir. Nazirlikdə deyirlər ki, yayındırılan vəsaitlər qeyri-neft sektorunda büdcə daxilolmalarının 30-40 faizinə bərabərdir. Bu göstəricinin inkişaf etmiş ölkələrlə müqayisədə çox olduğunu nazirliyində özündə də etiraf edirlər.

# Maliyyə Nazirliyi

**Azərbaycanın Əyar Palatası avadanlığın alışı üzrə tender elan edib.** Azərbaycan Maliyyə Nazirliyinin Əyar Palatası avadanlıq və aqreqatların alışı üzrə açıq tender elan edib. Tender dörd lot üzrə keçiriləcək. Tenderdə iştirak etmək istəyənlər sənədləri avqustun 22-ə qədər təqdim etməlidirlər. Tender avqustun 23-də saat 10:00-da Azərbaycan Milli Bankının binasında keçiriləcək.

**Azərbaycanın Maliyyə Nazirliyi dövlət istiqrazlarının xarici valyutada buraxılması ilə bağlı hüquqi məsləhətçini müəyyən edib.** Azərbaycanın Maliyə Nazirliyi xarici valutaya nominallaşdırılmış dövlət istiqrazlarının buraxılışı ilə bağlı hüquqi məsləhətçini müyyən edib. Nazirlikdən verilən məlumata görə, tenderin qalibi Brtaniyanın "Arnold& Porter LLC" hüquqi şirkəti olub. Müvafiq mövqe üzrə seçim dörd şirkət arasında keçirilib və qalibdən başqa tenderdə həmçinin «Baker & McKenzy», «Fresh Fields Bruckhaus», «LeBoeuF, lamb, greene & MacRaE» şirkətləri iştirak ediblər. «Arnold& Porter» şirkəti $700min/saat müqabilində xidmət göstərməyi təklif edib. «Baker & McKenzy» 10%-lik endirimi istisna etməyərək bu xidmətləri 350- 400 min dollar müqabilində həyata keçirməyi təklif edib, «Baker & McKenzy» 295 min dollara, «LeBoeuF, lamb, greene & MacRaE» yerli tərəfdaşın cəlb edilməsi şərtilə 265 min dollara həyata keçirmyi təklif edib. Maliyyə Nazirliyi avroistiqrazların birinci buraxılışını cari ilin sentyabr ayında həyata keçirməyi planlaşdırır. İstiqrazların buraxılışı üzrə menecerlər qismində «Deutsche Bank AG London» və «Citigroup Global Markets Limited» investisiya bankları çıxış edir. 2007-ci ilin dövlət büdcəsinin icrasının təsdiqi ilə bağlı prezidentin göstərişində avrobondların 249 mln. manat dəyərində buraxılışı nəzərdə tutulub.

## Vətəndaş cəmiyyəti

**Azərbaycan prezidenti QHT-lərə dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında sərəncam verib.** Azərbaycan prezidentinin 2007-ci il 27 iyul tarixli qərarı ilə QHT-lərə dövlət dəstəyi barədə dövlət konsepsiyası təsdiq olunub, rəsmi mətbuatın məlumatında belə deyilir. Dövlət başçısının sərəncamı ilə Prezident Aparatına iki ay ərzində QHT-lərlə iş üzrə dövlət strukturu və QHT-lərə dəstək fondunun yaradılması barədə göstəriş verilib. Prezident Aparatı konsepsiyanın reallaşması üzrə vəziyyətə nəzarət etməli, Azərbaycan Nazirlər Kabineti bu məsələdən irəli gələn vəzifələri həll etməlidir. Rəsmi mətbuatın verdiyi məlumatda həmçinin bildirilir ki, müvafiq sərəncam QHT-lərin təşviqi, onların sosial cəhətdən mühüm problemlərin həllinə, dövlət və sosial əhəmiyyyətli layihələrin reallaşmasına cəlb edilməsi məqsədilə verilib.

# Digər yeniliklər

**Azərbaycanda elektron dövlət satınalmaları işlənib hazırlanmışdır.** Satınalmalar üzrə Dövlət Agentliyi elektron dövlət satınalmaları sisteminin inkişaf planının üzərində işi yekunlaşdırmaq üzrədir. Agentlikdən verilən məlumata görə 2007-ci ilin sonuna qədər ölkədə dövlət satınalmaları elektron formada keçirilə bilər. Ölkə üzrə elektron satınalmalar sisteminin baza elementi olan satınalmalar üzrə elanların elektron forması artıq hazırlanmışdır. Hal-hazırda dövlət satınalmalarının monitorinqi reyestrinə 800 alıcı təşkilat daxil edilib. Reyestrə yalnız dövlət büdcəsindən maliyyələşən təşkilatlar deyil, həm də dövlətin 30%-dən çox payı olan müəssisələr daxildir. Hər il ölkədə orta hesabla 6 min dövlət satınalması həyata keçirilir. 2006-cı ildə dövlət satınalmaları üzrə bağlanılan kontraktların ümumi məbləği 1969736.86 min manat təşkil etmişdir.Bununla belə 151 min manatdan çox vəsaitə qənaət edilmişdir.Elektron satınalmalar sistemi Dünya Bankının 299 min dollarlıq qrantı əsasında hazırlanır. Buna qədər isə Dünya bankının 210 min dollarlıq qrantı hesabına dövlət satınalmalarının elektron momitorinq sistemi və satınalmalar üzrə məlumat bazası yaradılmışdır.

**Özəlləşdirmənin gedişi haqqında.** Keçid dövründə iqtisadi islahatların həyata keçirilməsi istiqamətində mühüm əhəmiyyətə malik özəlləşdirmə prosesi davam etməkdədir. Bu islahatlar çərçivəsində 2007-ci il iyul ayının 1-dək ümumi dəyəri 165,7 milyon manat olan 47259 kiçik müəssisə və obyekt, o cümlədən 920 sənaye, 123 kənd təsərrüfatı müəssisəsi, 543 tikinti təşkilatı, 3780 ticarət, 1081 iaşə müəssisəsi, 10077 məişət xidməti, 665 yanacaq-doldurma məntəqəsi, 19737 nəqliyyat müəssisəsi və nəqliyyat vasitəsi, 190 kommunal təsərrüfatı obyekti və 10143 digər dövlət obyektləri və avadanlıqlar özəlləşdirilmişdir. 2007-ci ilin birinci yarısında ümumi dəyəri 9,8 milyon manat olan 1078 kiçik müəssisə və obyekt özəlləşdirilmişdir. Bu proses Naxçıvan MR (42 müəssisə və obyekt), Bakı (597), Gəncə (67), Sumqayıt (41), Mingəçevir (70), Əli Bayramlı (20) şəhərlərində və Abşeron (13), Şəki (19), İsmayıllı (18), Lənkəran (14), Ağdaş (19), Xaçmaz (16), Quba (6), Şəmkir (10), Zaqatala (6) rayonlarında daha fəal aparılmışdır. Eyni zamanda, nizamnamə kapitalının həcmi 5,7 milyon manat olan 35 dövlət müəssisəsi, o cümlədən 18 tikinti, 6 sənaye, 3 ticarət, 3 nəqliyyat, 1məişət xidməti, və 4 digər müəssisə səhmdar cəmiyyətinə çevrilmişdir. Yarımil ərzində 256 dövlət müəssisəsinin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsindən 2,4 milyon manat vəsait əldə edilmişdir. Cari ilin əvvəlindən səhmlərinin ümumi dəyəri 32,3 milyon manat olan 104 səhmdar cəmiyyətinin səhmləri auksiona çıxarılmış və onların 5,7 milyon manatlıq hissəsi satılmışdır. 2047,7 min manatlıq səhmlər qapalı abunə ilə çeklə əmək kollektivlərinə və çek hərraclarında, 3600,2 min manat dəyərində olan səhmlər pullu auksionlarda satılmış, 16,0 min manatlıq səhmlər isə dövlət mülkiyyətində qalmışdır. Ökə sakinləri tərəfindən ümumi sahəsi 513,5 min kv.metr olan 7,9 min mənzil özəlləşdirilmişdir. Ümumiyyətlə, özəlləşdirmə başlanan dövrdən 01.07. 2007-ci illədək 397,4 min mənzil və ya özəlləşdirilməsi nəzərdə tutulan bütün mənzillərin 64,3 faizinin özəlləşdirilməsi başa çatdırılmışdır. İlin birinci yarısında dövlət büdcəsinə özəlləşdirmədən 20 milyon manat vəsait daxil olmuşdur.

***Mənbələr:***
Dövlət Statistika Komitəsi
Vergilər Nazirliyi
Dövlət Gömrük Komitəsi
http://www.abc.az
http://www.trend.az
http://www.anspress.com